**Ə.X.Nuriyev**
**AMEA-nın müxbir üzvü, i.e.d, prof.**
**Azərbaycan Respublikasının əməkdar elm xadimi**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası**
**"Regional iqtisadi və sosial Araşdırmalar İnstitutunun direktoru**
**UOT: 332:338.012; R11; R12; R58.**

# Azərbaycanda inzibati-ərazi bölgüsü və ərazi idarəetmənin təkmilləşməsinin obyektiv əsasları

***Xülasə***

*Məqalədə inzibati-ərazi bölgüsünün və ərazi idarəetmənin təkmilləşməsi - Azərbaycanın regionalarının inkişafı, ölkənin zəngin və iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsinin mühüm şərtlərindən biri kimi irəli sürülür. Inzibati ərazi bölgüsünün mahiyyəti açılır, inzibati ərazi bölgüsü və ərazi idarəetmə sahəsində mövcud problemlər aşkara çıxarılır və həlli yolları göstərilir, respublikamızda inzibati-ərazi bölgüsünün yeni şəbəkəsinin formalaşmasının zəruriliyi əsaslandırılır.*

***Açar sözlər:*** *inzibati-ərazi bölgüsü, ərazi idarəetmə, obyektiv səbəblərdən, hərtərəfli inkişafı, mühüm şərti*

**Giriş**

Müasir dövrdə respublikamızın hərtərəfli inkişafı, zəngin və iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsinin ümumi, həm də çox mühüm şərti inzibati-ərazi bölgü sisteminin və ərazi idarəetmənin təkmilləşməsidir. Düzgün inzibati-ərazi bölgüsü ərazi idarəetmənin düzgün təşkilinə şərait yaratmaqla ölkəmizin sosial-iqtisadi inkişafının sürətlənməsinə, səmərəliliyinə, o cümlədən respublikamızda müasir dövrdə dövlətin sosial-iqtisadi siyasətinin başlıca istiqamətini təşkil edən qeyri-neft sektorunun səmərəli, rəqabət-qabiliyyətli inkişafına, məhsuldar qüvvələrin səmərəli ərazi təşkilinə, əhalinin şəhərlər, kəndlər, bütövlükdə yaşayış yerləri arası mədəni-iqtisadi əlaqələrinin optimal, səmərəli təşkilinə güclü surətdə təsir göstərir. Odur ki, inzibati-ərazi bölgüsünün düzgün, hər zamanın tələbinə, məhsuldar qüvvələrin inkişaf səviyyəsinə uyğun aparılması həmişə diqqət mərkəzində olan məsələlərdən biridir.

**Əsas mətn**

XX əsrin əvvələri Azərbaycanın inzibati-ərazi bölgüsünü formalaşdırmaq üçün axtarış illəri olmuş, xüsusi ilə onun 20-ci illərində Azərbaycanın inzibati-ərazi bölgü sistemi bir neçə dəfə dəyişmiş, yeni forma və məzmun almışdır. Uzun müddətli axtarışlardan sonra keçən əsrin 30-cu illərinin əvvəlində Azərbaycanın mövcud inzibati-ərazi bölgü sistemi formalaşmışdır. Sonrakı illərdə inzibati-ərazi bölgüsü vahidlərinin sayında müəyyən dəyişikliklər olsa da (sayı artsa və ya azalsa da) onun prinsipləri, mahiyyəti dəyişməmişdir. Eyni zamanda, respublikamızda inzibati ərazi bölgüsünün və müvafiq ərazi idarəetmə sisteminin əsaslı surətdə yenidən qurulmasına və təkmilləşməsinə ehtiyac yaranmışdır. 1963-cü ildə Respublikamızda şəhərlərin, nəqliyyat-yol şəbəkəsinin inkişafını, şəhərlər-kəndlərarası gündəlik miqrasiyaların artdığını nəzərə alaraq inzibati-ərazi bölgüsünü təkmilləşdirmək üçün 22 inzibati rayon ləğv olunub digər qonşu inzibati rayonlara birləşdirildi. Lakin bu özünü doğrultmadı. Ləğv olunmuş inzibati rayonlar cəmi bir il sonra bərpa olundu. Beləliklə, inzibati-ərazi bölgüsünün və ərazi idarəetmənin təkmilləşməsi məsələsi həll edilməmiş qaldı və hazırda daha aktual xarakter almışdır.

Bütün belə amilləri nəzərə alaraq bizim Azərbaycanın proqram məqsədli idarəetmə regionlarına (okruqlara, vilayət, qəza və ya statistik regionlara) bölgüsünün aparılması təşəbbüsümüzdən sonra respublikamızda inzibati-ərazi bölgüsünü təkmilləşdirmək prosesi yenidən iqtisadi rayonlara bölgü adı ilə aparıldı. Bakı şəhəri (Bakı iqtisadi rayonu) ilə birlikdə 14 iqtisadi rayondan ibarət şəbəkə formalaşdırıldı. Beləliklə, respublikamızda iqtisadi rayonlara bölgü şəbəkəsi tez-tez dəyişdirilmiş, 1950-ci ildən başlayaraq beş dəfə yeni iqtisadi rayonlara bölgü şəbəkəsi qəbul edilmişdir, lakin qəbul edilmiş iqtisadi rayonlar şəbəkəsi bir mənalı qarşılanmamışdır. Yeni qəbul edilmiş şəbəkənin özü də iqtisadi rayonlara bölgü baxımından bir mənalı qarşılanmır. Yuxarıda qeyd etdiyimiz kimi inzibati-ərazi bölgüsünün təkmilləşdirilməsi üçün 1963-cü ildə həyata keçirilmiş dəyişikliklər də özünü doğrultmamış, çox qısa müddətdən sonra ləğv olunmuş, inzibati-ərazi bölgüsünün təkmilləşdirilməsi məsələsi də həll olunmamışdır. Hazırda problem daha aktual xarakter almışdır. Səbəb nədir, nə üçün Respublikamızda keçən əsrin 60-cı illərinin əvvəllərindən ortaya çıxan, müasir dövrüdə isə daha aktual xarakter alan inzibati-ərazi bölgüsünün təkmilləşməsi kimi bir problemin həlli iqtisadi rayonlara bölgü adı ilə aparılır, bu da bir mənalı qarşılanmır.

Fikrimizcə respublikamızda inzibati-ərazi bölgüsü və iqtisadi rayonlara bölgü sahəsində fikir ayrılığının yaranmasının əsas səbəbi bu sahlərdə əsaslı tədqiqatların aparılmaması, nəticədə iqtisadi rayonlara bölgü və inzibati-ərazi bölgüsünün prinsiplərinin, onların təkmilləşməsini tələb edən səbəblərin qarışdırılması, müəyyən dərəcədə eyniləşdirilməsidir. Bu da inzibati-ərazi bögüsünə, iqtisadi rayonlaşdırmaya münasibətdə fikir, mövqe ayrılıqlarına, nəticədə hər iki sahədə müəyyən səhvlərə, çatışmamazlıqlara səbəb olur. Əksər hallarda inzibati-ərazi bölgüsünün təkmilləşməsini tələb edən səbəblər iqtisadi rayonlara bölgünün təkmilləşməsini tələb edən səbəblər kimi qəbul edilir. Fikrimizcə, problemin düzgün və vaxtında həlli üçün birinci növbədə inzibati-ərazi bölgüsünün və iqtisadi rayonlara bölgünün mahiyyətini, məqsədlərini, aparılması prinsiplərini düzgün müəyyən etmək lazımdır. Lakin mövcud ədəbiyyatlarda, təlimatlarda inzibati-ərazi bölgüsünə aid bu məsələlər öz əksini kifayət qədər tapmamışdır. Məhz 1960-cı illərdən başlayaraq inzibati-ərazi bölgüsü və iqtisadi rayonlara bölgü şəbəkəsinin qəbul edilib sonra ləğv olunmasının əsas səbəbi fikrimizcə bunların təkmilləşməsini tələb edən səbəblərin, bəzi hallarda iqtisadi rayonlara və inzibati-ərazi bölgüsü prinsiplərinin qarışdırılmasıdır. Eyni zamanda 1969-cu ildə və 2022-ci ildə iqtisadi rayonlara bölgünün hansı prinsiplər əsasında aparılması haqqında məlumat yoxdur. Bu bölgülərdə iqtisadi rayonlara bölgü ilə inzibati ərazi bölgüsü prinsipləri qarışdırılmış, iqtisadi rayonlara bölgü formasında təqdim olunmuşdur.

İnzibati-ərazi bölgüsünün obyekti insanlardır, onların gündəlik həyat və fəaliyyətinin (xüsusilə əmək fəaliyyətinin) əhatə etdiyi ərazidir. Elmi əsaslara söykənən inzibati-ərazi bölgüsü milli xüsusiyyətləri, böyük inzibati-ərazi vahidlərinin öz gəlirləri ilə xərclərini ödəmək imkanını nəzərə almaqla əhalinin yaşayış və gündəlik fəaliyyət yerinə görə ərazi bölgüsü, bu ərazinin vahidliyinin dövlət aparatı ilə rəsmiləşdirilməsi kimi meydana gəlmişdir. Azərbaycanda 1930-cu illərin əvvələrində inzibati rayonlara bölgü məhz bu prinsip əsasında aparılmışdır. Bu ərazi vahidlərində istehsal potensialından istifadədə, həm də əhalinin müxtəlif xarakterli tələbatının ödənilməsində ümumilik var və bu ümumilik və ya birlik vahid dövlət və ya özünü idarəetmə aparatı ilə rəsmiləşdirilir. İqtisadi rayonlara bölgünün əsas obyekti və bu bölgü zamanı nəzərə alınması vacib olan əsas prinsiplər ərazinin təbii şəraiti (iqlimi, relyefi) istehsalın tarixən ixtisaslaşması istiqaməti, bu istiqamətdə toplanmış tarixi təcrübə, əhalinin adət-ənənələri, istehsal sahələri arasında əlaqələrin olması təşkil edir. Beləliklə, iqtisadi rayonların ərazisini müəyyən edən prinsiplərlə inzibati-ərazi bölgü

vahidinin ərazisini müəyyən edən prinsiplər, eləcə də iqtisadi rayonlara bölgünün və inzibati-ərazi bölgüsünün məqsədləri tamamilə fərqlənir. Iqtisadi rayonlara bölgüdə məqsəd ərazinin təbii-coğrafi şəraitindən, əhalinin tarixən toplanmış istehsal təcrübəsindən, adət-ənənələrindən düzgün istifadə etməklə istehsalı düzgün ixtisaslaşdırmaq və məhsuldarlığını, səmərəliliyini artırmaqdır. İnzibati-ərazi bölgüsündə məqsəd regionlarda sosial-iqtisadi inkişafı, onların qarşısına qoyulmuş məqsədlərə çatmağı təşkil və idarə etməyi bacaran çevik idarəetmə strukturu formalaşdırmaqdır. Beləliklə iqtisadi (coğrafi) rayonlara bölgünün məqsədi və prinsipləri inzibati-ərazi bölgüsünün məqsədi və prinsiplərindən tamamilə fərqlənir. Inzibati-ərazi bölgüsünü təkmilləşdirməklə biz iqtisadi rayonlarda ərazi-istehsal komplekslərində gedən inkişaf proseslərinin idarə olunmasını təkmilləşdirir və səmərəliliyini artırmaq istəyirik.

Müasir dövrdə yaşayış yerləri arasında gündəlik miqrasiyaların artması, ərazi-istehsal komplekslərinin formalaşması birinci növbədə inzibati-ərazi blgüsünün təkmilləşməsini tələb edir. 1930-cu ildə inzibati rayonlara bölgü aparılan vaxt nəqliyyat- yol şəbəkəsi kifayət qədər inkişaf etməmişdi. Əhali harada yaşayırdısa orada da işləyirdi (az təsadüf olunan bəzi hallar müstəsna olmaqla) və gündəlik tələbatını ödəyirdi. Lakin XX-əsrdə, xüsusilə onun 50-60-cı illərindən başlayaraq yol-nəqliyyat sisteminin sürətli inkişafı nəticəsində əhalinin bir hissəsinin yaşayış yeri və gündəlik fəaliyyət (xüsusilə əmək fəaliyyəti) yeri ayrılmağı başladı. Əmək qabiliyyətli əhalinin bir hissəsi bir rayonda, kənddə, şəhərdə yaşayır, onlardan başqa birində işləyir, təhsil alır və digər gündəlik tələbatını ödəyir. Məhsuldar qüvvələr, şəhərlər, nəqliyyat-yol şəbəkəsi inkişaf etdikcə bu proseslər daha geniş xarakter almışdır. Misal üçün o zaman olan statistik məlumata görə 1986-cı ildə hər gün ictimai nəqliyyatla Bakıdan Sumqayıta 5 min nəfər, Sumqayıtdan Bakıya 18 min nəfər işləməyə, təhsil almağa və başqa gündəlik tələbatını ödəməyə gedirdi. Hazırda Sumqayıtdan Bakıya gündəlik miqrasiyalar 1986-cı ildə olduğundan azı iki dəfə çoxdur. Başqa iqtisadi rayonlarda da inzibati rayonlar, kəndlər, şəhərlər arasında da belə gündəlik miqrasiyalar inkişaf etmiş, əhalinin gündəlik həyat və fəaliyyətinin əhatə etdiyi ərazi genişlənmişdir. Araşdırmalar göstərir ki, gündəlik miqrasiyalar kifayət qədər böyük məsafəni və ərazini əhatə edir. Hazırda Azərbaycanda yaşayış yerləri və iş, təhsil yerləri arasındakı gündəlik miqrasiyalar 70 km-dək məsafəni əhatə edir. Dünyanın bir çox rayonlarında böyük (nəhəng) şəhərlərə doğru gündəlik miqrasiyalar nəqliyyatın sürətindən asılı olaraq 100-120 km-dək məsafəni əhatə edir. Keçən əsrin 50-60-cı illərindən başlayaraq ərazi istehsal komplekslərinin formalaşması əhalinin gündəlik miqrasiyalarını intensivləşdirmişdir. Bu isə bu miqrasiyaların baş verdiyi ərazilərdə-inzibati rayon və şəhərlərin ayrılıqda inkişafdan qarşılıqlı əlaqədə inkişafa, istehsal potensialından, xüsusilə əmək ehtiyatlarından birlikdə istifadə olunmasına, əhalinin gündəlik ehtiyaclarının birlikdə, qarşılıqlı əlaqədə ödənilməsinə keçid deməkdir. Bu qarşılıqlı əlaqədə inkişafın səmərəliliyinin artırılması mənafeyi həmin ərazidə sosial-iqtisadi inkişafın vahid mərkəzdən idarə olunmasını tələb edir. Beləliklə, ərazi-istehsal komplekslərinin formalaşması əhalinin gündəlik həyat və fəaliyyətinin əhatə dairəsini genişləndirməklə inzibati-ərazi bölgüsü vahidlərinin və ərazi idarəetmə sisteminin əhatə dairəsini genişləndirməyi tələb edir. Ona görə də keçən əsrin 50-60-cı illərindən başlayaraq əhalinin şəhərlər, inzibati rayonlar arası gündəlik miqrasiyalarının intensiv inkişafı birinci növbədə iqtisadi rayonlara bölgü sistemini deyil, inzibati-ərazi bölgü sistemini təkmilləşdirməyi tələb edir. Məhz bu səbəblərdən keçən əsrin 60-80-ci illərində müttəfiq respublikaların hamısında inzibati-ərazi bölgüsündə və iqtisadi rayonlaşdırmada müvafiq dəyişikliklər, təkmilləşdirmələr aparılmışdır. Lakin Respublikamızda hər iki bölgü formasının təkmilləşməsinə ehtiyac olsa da bu problemlər həll

olunmamış qalırdı. 1963-cü ildə inzibati rayonlara bölgünü təkmilləşdirmək təşəbbüsü də müsbət nəticə verməmişdi. 1969-cu ildə aparılmış iqtisadi rayonlara bölgü şəbəkəsi də inzibati-ərazi bölgüsünün təkmilləşməsini tələb edən prinsipal cəhətləri iqtisadi rayonlaşmaya aid etdiyinə görə birmənalı qarşılanmadı.

Elmi-tədqiqat işlərində, tədris prosesində əksər hallarda 1969-cu ildə qəbul edilmiş iqtisadi rayonlara bölgü şəbəkəsi deyil, 1956-cı ildə qəbul edilmiş şəbəkədən istifadə olunurdu. 1995-ci ildə Bakı Dövlət Universitetində keçirilən konfransda problemin geniş müzakirəsindən sonra 1969-cu ildə qəbul edilmiş iqtisadi rayonlara bölgü şəbəkəsi ləğv olundu, əvəzində Azərbaycanın iqtisadi rayonlara bölgüsünün 10 iqtisadi rayondan ibarət yeni şəbəkəsi qəbul olundu. Mütəxəssislərin geniş müzakirədən sonra qəbul edilmiş 10 iqtisadi rayondan ibarət yeni şəbəkə iqtisadi rayonlara bölgü qarşısına qoyulan bütün tələblərə cavab verir və onun dəyişdirilməsinə, təkmilləşməsinə ehtiyac yoxdur. 1995-ci ildən sonra bu iqtisadi rayonların iqlimində, istehsalın, xüsusilə aqrar-sənaye kompleksinin ixtisaslaşması istiqamətində, əhalinin tarixən toplanmış istehsal təcrübəsində və iqtisadi rayonlara bölgünün təkmilləşməsini tələb edən digər amillərdə elə bir əsaslı dəyişiklik baş verməmişdir. Odur ki, 1995-ci ildə qəbul edilmiş iqtisadi rayonlara bölgü şəbəkəsi Qarabağın və Şərqi Zəngəzurun həm iqtisadi rayon və həm də regional idarəetmə obyekti kimi ərazi bütövlüyünü saxlamaqla bütün tələblərə cavab verir. Fikrimizcə onu təkmilləşdirməyə elə bir ciddi ehtiyac yoxdur. Beləliklə, iqtisadi rayonlara mövcud bölgü şəbəkəsini saxlamaq, inzibati-ərazi bölgüsünü yenidən formalaşdırmaq daha məqsədyönlü olardı. Çalışmaq lazımdır ki, inzibati-ərazi bölgüsü formal xarakter daşımasın, elmi əsaslarla aparılsın, ondan regional idarəetmədə, elmi-tədqiqat işlərində, tədris prosesində və statistik uçotda kifayət qədər müvəffəqiyyətlə istifadə olunsun.

**Nəticə**

Qeyd etməyi vacib bilirik ki, yeni inzibati-ərazi bölgüsünün aparılması çox məsuliyyətli bir işdir. Fikir ayrılığı olan məsələləri dəqiqləşdirmək, həll etmək üçün bir çox inzibati rayonlarda əhali arasında sorğu aparmağa, rayon icra aparatının təcrübəli işçilərinin rəylərini öyrənməyə də ehtiyac ola bilər. eyni zamanda 1926-cı ildə Azərbaycanın vilayət və qəzalara bölgü, 1969 və 2022-ci illərdə iqtisadi rayonlara bölgü şəbəkələrindən də müsbət cəhətləri götürmək olar. Inzibati-ərazi bölgüsünün aparılması və ərazi idarəetmə sisteminin formalaşması ardıcıllığına aid mövqeyimiz bundan əvvəl nəşr olunmuş monoqrafiyamızda kifayət qədər şərh olunmuşdur (8.səh.373-374).

**Ədəbiyyat**

1. Материалы по районированию Азербайджанской ССР. Том IV. вып.1 Баку. 1928
2. Вл.А.Дробное районирование Азербайджана; эконом. Вестник Азербайджана, 1929. №4.
3. Azərbaycan iqtisaddiyatı, statistik külliyat. Bakı Azərnəşr 1958.
4. Советский Азербайджан Баку 1958.
5. Azərbaycan SSR İnzibati ərazi bölgüsü Azərnəşr Bakı 1979.
6. Nuriyev Ə.X. Məhsuldar qüvvələrin Respublika daxilində yerləşməsinin təkmilləşməsinin sosial iqtisadi problemləri. Bakı, Elm. 1982.
7. Dünyanın iqtisadi coğrafiyası (postsovet ölkələri) Bakı-2018, 510 səh.
8. Nuriyev Ə.X. Ölkənin regional strukturunun formalaşması və təkmilləşməsi problemləri (tarix və müasirlik) Bakı: Savad, 2021.

***А.Х. Нуриев***
***Член кор. НАНА, д.э.н.проф., заслуженный деятель науки Азербайджана, Директор Института «Региональных экономических и социальных исследований» в Государственной Академии Управления при Президенте Азербайжданской Республики.***

***Объективные основы совершенствования административно-территориального деления и территориального управления Азербайджана***

***Резюме***

*В статье совершенствования административно-территориального деления и территориального управления выдвигается как важное условие всестороннего развития Азербайджана и превращение в экономически сильное государство. Раскрывается сущность административно-территориального деления, выявляются имеющие проблемы в сфере административно-территориального деления и территориального управления, обосновываются необходимости и пути принятия новой сети административно-территориального деления.*

***Ключевые слова:*** *административно-территориальное деление, территориальное управление, объективные причины, комплексное развитие, важное условие.*

***A.Kh.Nuriev***
***Corresponding Member ANAS, Doctor of Economics, Prof., Honored Worker of Science of Azerbaijan, Director of the Institute of "Regional Economic and Social Research" at the Academy of Public Administration under the President of the Republic of Azerbaijan***

***Objective foundations of improvement administrative-territorial division and territorial administration of Azerbaijan***

***Summary***

*In the article improvement of the administrative-territorial division and territorial administration is put forward as an important condition for the comprehensive development of Azerbaijan and the transformation into an economically strong state. The essence of the administrative-territorial division is revealed, the problems in the field of administrative-territorial division and territorial administration are identified, the necessity and ways of adopting a new network of administrative-territorial division are substantiated.*

***Keywords:*** *administrative-territorial division, territorial administration, objective reasons, integrated development, an important condition.*

***Elmi redaktor: i.e.d. Y.Məmmədov***
***Daxil olub: 20.11.2023.***
***Çapa qəbul olunub: 28.11.2023.***